**Annotasiya:** Məqalədə idman və qəza-xilasetmə avadanlıqlarının etibarlılığının ehtimal nəzəriyyəsinin və riyazi statistikanın metodları ilə tədqiqi məsələlərinə baxılmışdır. Alınan nəticələr analiz edilmişdir.

## Research of sports and rescue machines and equipment reliability by using probability theory and mathematical statistics methods

*A.M. Gafarov, B.H. Salayev*
*e-mail: Aydin.qafarov@hotmail.com*
*Academy of the Ministry of Emergency Situations of Azerbaijan Republic*

**Annotation:** Sports and rescue machines and equipment reliability by using probability theory and mathematical statistics methods was studied in the article. The obtained results are analyzed.

**Key words:** accident, rescue, machinery, equipment reliability, means, assessment, mathematics, models, distribution

## ÖLKƏDƏ BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İDARƏ EDİLMƏSİNİN ELMİ ƏSASLARI

*Dos. Qasımov Ə. S., dos. Bacarani K.Z.*
*afqan.qasimov@sport.edu.az*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr 2019
Dərc olunub: 5 dekabr 2019
© 2019 ADBTİA. Bütün hüquqlar qorunur.

**Annotasiya:** Bu məqalədə ölkədə bədən tərbiyəsi və idmana münasibət,bədən tərbiyəsi və idmana dövlət qayğısı, dövlətin siyasəti və vəzifələri təhlil edilir. Bədən tərbiyəsi və idmanın hər bir cəmiyyətdə mövcudluğu, ölkədə bədən tərbiyəsi və idmanın elmi əsaslarla idarəedilməsi və həyata keçirilməsinin vacibliyi öz əksini tapır.

**Açar Sözlər:** bədən tərbitəsi və idman,idarəetmə,menecment,menecer,sosial idarəetmə.

**Giriş.** Respublikada bədən tərbiyəsi və idmanın inkişafı ölkədə fəaliyyət göstərən bütün dövlət orqanları və ictimai təşkilatların birgə fəaliyyəti bir-biri ilə bağlılıq səviyyəsindən asılıdır. Xalqın sosial inkişafının və mədəniyyətinin ən əsas sahələrindən olan bədən tərbiyəsi və idmana ciddi münasibət bəsləyən, böyük diqqət və qayğı ilə yanaşı, Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyev idman ictimaiəyyəti ilə görüşlərində bu sahənin insanlar və dövlətimiz üçün nə qədər vacib olduğunu dəfələrlə vurğulayaraq deyirdi: «Bədən tərbiyəsi və idman xalqın sağlamlığı ilə bağlı olan mühüm bir sahədir. Dünyada bədən tərbiyəsi və idmanın müasir səviyyədə inkişaf etdiyi bir dövrdə Azərbycanda idmanın, bədən tərbiyəsinin kütləvi surətdə inkişaf etməsinə ciddi fikir verməliyik. Bu, bizim vəzifəmizdir, borcumuzdur» [1]

Azərbaycan Respublikasında dövlətin qarşısında duran tarixi vəzifələrin, o cümlədən dövlətçiliyin, iqtisadiyyatın və sosial sahələrin inkişafı və möhkəmləndirilməsində bədən tərbiyəsi və idmanın əhəmiyyətinin xüsusi rolu gündən günə artmaqdadır.

Bədən tərbiyəsi və idman hərəkatının idarə edilməsinin əsas məqsədi bu sahədə ixtisaslaşan mütəxəssislərə bədən tərbiyəsi və idmanın təşkili, idarə edilməsi, iqtisadiyyatına aid bilik, bacarığa yiyələnmək, sərbəst iş aparmaq qabiliyyəti aşılamaqdır. [1]

Material ve metodalr

Bədən tərbiyəsi hərəkatının idarə olunması xalqın maraqları və dövlətin siyasətinə uyğun olaraq bədən tərbiyəsi və idmanın inkişaf prosesinin bütövlükdə elmi əsaslarla idarə olunması kimi başa düşülməlidir. Bədən tərbiyəsi və idman müxtəlif elmlərin təhlil obyekti olan çox mürəkkəb sosial bir sahədir. [1]

Idarəetmənin 3 mühüm yanaşma üsulu mövcuddur ki, bunlara inzibati idarəetmə, insan münasibətləri və davranış qaydaları, eləcədə elmi idarəetmə daxildir. Bundan əlavə idarəetmə mərhələli prosesdir və 4 mərhələni əhatə edir:
-mövcud vəziyyəti öyrənmək;
- vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin planlaşdırılması;
- tədbirlərin icrası;
- yerinə yetirilən işlərə nəzarət.

İdarəetməyə daha geniş baxsaq: a) maşınlar sistemi və texnoloji prinsiplərin idarə edilməsi –buna mexanizm idarəetmə deyilir; b) bioloji sistemlərin idarə edilməsi; c) insanlar birliyinin idarə edilməsi – buna ideoloji idarəetmə, yaxud ictimai idarəetmə deyilir.

İdarəetmə dedikdə, biz bütün idarəedici, sərəncamverici qanunun, dövlət və ictimai orqanlarının fəaliyyətini nəzərdə tuturuq.

İdarəetmə hər bir cəmiyyətdə mövcud olmuş və bugün də fəaliyyət göstərməkdədir.

Inzibati idarəetmə üsulu idarəetmə üsulu idarəetmə prinsiplərini aşkarlamaqla yanaşı, idarəetmə funksiyalarını təsvir edir və təşkilatın bütünlüklə idarə olunmasına sistemli yanaşmanı təşkil və izah edir.

İnsanlar fərqli olduqları üçün onlara bəslənən münasibət də müxtəlif olmalıdır. Cəmiyyətdə mövcud olan hər bir fərdin özünün müəyyən qabiliyyəti var. Insani münasibətlər məktəbi əmək məhsuldarlığının yüksəldilməsi və son nəticə əldə edilməsi üçün fərdi münasibətlərin idarə olunmasını, onların sosial və psixoloji vəziyyətlərinin nəzərə alınmasını, rəhbərlərin işçilərə qayğı ilə yanaşması faktorlarını aşkarılayır. [2]

Bədən tərbiyəsi və idmanın idarə edilməsi müxtəlif elmlərin təhlil obyekti olan sosial bir sistemdir. Elmi idarəetmə məktəbi (sistemi) bədən tərbiyəsi və idmanın inkişafı ilə sıx bağlı olan elmlərin qanunauyğunluqlarını dərk etməyə və onlara dərindən yiyələnməyə, elmi cəhətdən yanaşmağa və təcrübədə yüksək nəticə əldə etməyə zəmin yaradır.

Bədən tərbiyəsi və idman özbaşına idarə olunmur. Müasir dünyanı idmansız təsəvvür etmək mümkün deyil. Idman həm də insanlara mənəvi qüvvə, nikbinlik, həyat eşqi bəxş edən böyük əyləncə, istirahət, tamaşa, şirin zövq mənbəyidir.

Ali və orta ixtisas təhsili müəssisələrinin məzunları olan bədən tərbiyəsi mütəxəssisləri bədən tərbiyəsi və idman sahəsi üzrə idarəetmənin elmi əsaslarını dərindən bilməli, idarəetmə fəaliyyətinin müasir forma və metodlarına peşəkarcasına yiyələnməlidir.

Burada əsas diqqət ölkədə bədən tərbiyəsi və idmanın idarəetmə orqanları sisteminə yönəldilməlidir. Bədən tərbiyəsi və idman sahəsindəki idarəetmə orqanlarının fəaliyyəti, əsasən bədən tərbiyəsi hərəkatının təşkilati formalarının təkmilləşdirilməsinə, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı təşkilatların işlərinin keyfiyyətinin yüksəldilməsinə istiqamətləndirməlidir.

Qərb alimləri belə hesab edirlər ki, ilk dəfə idarəetməyə elmi yanaşma 1911-ci ildən yaranmışdır. Idarəetmə menecment deməkdir. Menecment hər hansı obyektin idarə edilməsidir. Bazar iqtisadiyyatına əsaslanan ölkələrdə istehsal müəssisələrini idarə edən şəxslərə menecer deyilir. Elmi idarəetmə məktəblərinin yaranması XX əsrin əvvəlində ABŞ-da başlamışdır. [5]

«Bədən tərbiyəsi və idmanın idarə edilməsi» fənni ali bədən tərbiyəsi təhsil müəssisələrinin tədris planına ilk dəfə 1948-ci ildə daxil edilmişdir.

Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasında müəyyən edilmiş sosial-iqtisadi şəraitdə bədən tərbiyəsi və idmanın inkişafı dövlət orqanları və ictimai təşkilatlar tərəfindən həyata keçirilən, elmi şəkildə idarə olunan prosesdir.

Bədən tərbiyəsi və idman hər hansı bir ölkədə iqtisadi və sosial-mədəni quruculuğun idarə olunmasının konkret tarixi, təşkilati struktur forması kimi müəyyən edilmiş sistemdə inkişaf etdirilir. Hal-hazırda Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın idarəetmə quruluşu aşağıdakı şəkildə göstərilmişdir. ( şəkil 1)




**şəkil 1. Azərbaycan Respublikasında bədən tərbiyəsi bə idmanın idarə edilməsinin təşkilati quruluşu**

Şəkildə göründüyü kimi bədən tərbiyəsinin idarə edilməsi qanun əsasında sistemləşdirilib idarə edilən bir prosesdir.
Idarəetmə- özünün bütövlüyü, quruluş vahidliyini saxlamaqla müəssisədə son məqsədə nail olmaq üçün tətbiq edilən müxtəlif təbiətli sistemlərin təsiretmə vasitəsidir.
İdarəetmə, hər hansı bir obyekt (təşkilat, müəssisə, firma) olmadan icra edilə bilməz. İdarəetmənin mövcudluğu təşkilatın olması ilə bağlıdır. Yəni təşkilat varsa idarəetmə də vardır və əksinə.
İdarəetmə sistemi- obyekt və subyekt olmaqla iki tərkib hissədən ibarətdir. Obyekt –idarə olunan, subyekt isə -idarə edəndir.
Sistem (yunanca systema) – ayrı-ayrı hissələrdən təşkil olunmuş birləşmə deməkdir. Mahiyyətcə, sistem – müəyyən bütövü (tamı) əmələ gətirən ayrı-ayrı hissələrin (elementlərin, hadisələrin) qanunauyğun birləşməsi, birliyidir.
Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq müasir idmanın idarə edilməsində idman menecerlərinə böyük tələbat yaranmışdır.
"Menecment" anlayışı ingilis sözü olub idarəetmə və təşkiletmə ifadəsinə uyğundur. Lakin, bu anlayışı isə idarəetmənni tərkib hissəsi kimi də qəbul edilə bilər. [3]
"Menecer" anlayışı isə şəxsiyyətlə bağlıdır və o, muzdla tutulmuş idarə edən rəhbərdir, idarəetmədə iştirak edən şəxsdir.
Hər bir menecer şəxsi keyfiyyətlərə malik olmalıdır. Menecer üçün əsas keyfiyyətlərdən biri –adamlarala işləməyi bacarmaq, onları son nəticə əldə edilməsinə maraqlandırmaq, daimi və müntəzəm yüksək iqtisadi nəticələr əldə edliməsini təmin etməkdir. [4]
Hələ eramızdan əvvəl yunan filosofları hesab edirdilər ki, hər bir rəhbər işçi əsasən aşağıdakı 4 xarakterik keyfiyyətə malikdir:
1)müdriklik;
2) ədalətlilik;
3) hiyləgərlik;
4) cəsurluq.

Göstərilən metodlar gündəlik fəaliyyətdə kompleks şəkildə istifadə olunur. Onlar bir-biri ilə qırılmaz sürətdə bağlıdır. İdarəetmə məharəti onun bütün metodlarından bacarıqla istifadə etmək, onları seçib əlaqələndirmək, bu və ya digər konkret şəraitdə tabeliyində olan işçilərə təsir etməyin ən səmərəli üsullarını tapmaq bacarığından ibarətdir.

Nəticə: Azərbaycanda bədən tərbiyəsi və idmanın idarə edilməsinin elmi əsasları hərtərəfli araşdirilmiş və aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Müasir dövrdə bədən tərbiyəsi və idmanın idarə edilməsində müxtəlif növ elmi biliklərin sintez halında öyrənilməsi ən vacib şərtdir.
2. Bədən tərbiyəsi və idmanın idarə edilməsində qarşıya qoyulan məqsəd elmi əsaslarla təhlil və məntiq əsasında formalaşır və onun səmərəliliyinin optimal variantı axtarılır.
3. Elmi idarəetmədə informasiyanın dəqiqliyi və operativliyi idman təşkilatlarının iqtisadi səmərəliliyini artırır, daha çox mənfəət əldə etməyə imkan verir.

Bədən tərbiyəsi və idmanın idarə edilməsində İKT-dən istifadə olduqda zəruridir. Bunun nəticəsində ilkin informasiyaların toplanması, ötürülməsi asanlaşır və operativ idarəetmə qərarlarının qəbulu tezləşir, çevikliyi artır.

**Ədəbiyyat**

1.A.Əliyev, Ə.Qasımov, K.Bacarani “Bədən tərbiyəsi və idmanın idarə edilməsi.” Dərs vəsaiti. Bakı, 2014.
2. Ağacəfər Məmməd oğlu İmran “Menecment”, Dərslik Bakı-2007
3.Р. А. Исаев “Основы менеджмента” ,Учебник,Москва-2010
4. С.С.Филиппов « Менеджмент в сфере физической культуры и спорта», Учебное пособие, Москва -2015
5.Томпсон-мл.Артур.Стратегическийменеджмент:концепции и ситуации для анализа,12-ое изд.2013.

## Научные основы управления физической культурой и спортом в стране

*Доц.Гасымов А.С, доц.Баджарани К.З.*
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

Аннотация: В данной статье анализируется состояние физической культуры и спорта в стране, государственная забота о физической культуре и спорте, политика и обязанности государства. Наличие физической культуры и спорта в каждом обществе отражает важность научного управления и реализации физической культуры и спорта в стране.

**Ключевые слова**: Физкультура и спорт,управление,менеджмент,менеджер,социальное управление.

## Scientific bases of physical culture and sports management in the country

*Prof. asistent Qasimov A.S., dos. Badjarani K.Z.*

*Azerbaijan State Academy of Physical Culture and Sport*

Annotation: This article analyzes the state of physical culture and sports in the country, the state care for physical culture and sports, the policies and responsibilities of the state. The existence of physical culture and sports in each society reflects the importance of scientific management and implementation of physical education and sports in the country.

**Keywords:**physical culture and sport, control, management, manager, social management.